İran Azerbaycan'ın Qerb Bölgelerinde Folklor Potansiyelleri ve Folklorun Toplanma Tedqiq ve Neşrinde Bezi Problemler ve Çözüm Yolları

[Folklore Potentials in the Western Regions of Irani Azerbaijan and Problems and Solutions in Folklore Collection, Research and Publication]

Tohid MELİKZADE*

Özət: İran Azerbaycan erazisini teşkil eden menteqeler en qedim zamanlardan bu güne qeder Türklerin yurdu olmuşdur. Eski Azerbaycan xalqlarından As, Aratta, Mana, Urarto, kimer ve sayir proto Türkler yaşadıkları Azerbaycan erazisinde toponim ve etnonim vasitesile izlerini bıraxmışlar. Azerbaycan'da yaşayan Türkler, Oğuz ve Qıbçaq Türkleri idiler. Afşarlar, Bayatlar, Beydililer, Qarapapaqlar, Aqqoyunlu ve Qaraqoyunlu Türk devletlerinin qurulmasında çox tesirli ve mühim rolları olmuşdur. Biz bu meqalede yalnız Azerbaycan'ın cenubunda ve onun qerb bölgelerinde tarix boyu yaşayan Oğuz Türkleri boylarından danışıb bu tayfaların muasir Azerbaycan folklorunda ne qeder mühüm rolları olduqlarından danışacıyıq.

Açar Sözlər: Azerbaycan, Oğuz Türkleri, folklor.

Abstract: The territories making up the territory of Irani Azerbaijan have been the homeland of the Turks since ancient times. Among ancient Azerbaijani peoples; As, Aratta, Mana, Urarto, Kimer and other proto-Turks left their traces in the lands of Azerbaijan through the toponyms and ethnonyms. The Turks living in Azerbaijan were Oghuz and Kibchak Turks. In addition, Afshars, Bayats, Beydilis, Qarapapaqs, played crucial and important roles in the establishment of the Turkish states of Aghgoyunlu and Garagoyunlu. In this article, we will discuss only about the Oghuz Turks living in the south of Azerbaijan and its western regions throughout history, and about the significant role of these tribes in modern Azerbaijani folklore.

Keywords: Azerbaijan, Oghuz Turks, folklore.

Giriş

İran Azerbaycan erazisini teşkil eden menteqeler en qedim zamanlardan bu güne qeder Türklerin yurdu olmuşdur. Eski Azerbaycan xalqlarından As, Aratta, Mana, Urarto, kimer ve sayir proto Türkler yaşadıkları Azerbaycan erazisinde toponim ve etnonim vasitesile izlerini bıraxmışlar. Yalnız bu özel

* Dr., Araştırmacı yazar, Batı Azerbaycan, Urmiye, İran, tohidmelikzade@yahoo.com

adlar deyil eski Türk xalqların izlerini, eski Türklerin inanc terzi (totemizm ve Şamanizm) ya da eski heyat terzi motiflerini şifahi edebiyatda da görmek mümkündür.

İslâm dini Azerbaycan'a geldikden sonra Oğuz ve sonralar Qıbçaq Türklerin qalabalıq gelişleri xalqımızın eski Türklerden miras qalmış menevi heyatımız daha da zenginleşdi. Azerbaycan torpaqlarında sakin olan Türk göçebe xalqları qedim Azerbaycan'da yaşayan Türklerle qavuşub yeni Azerbaycan Türk'ü ve millî edebiyat, musiqi ve folklorumuzu teşkil etdiler.

Cenubi Azerbaycan'ın Qerb Menteqelerinde Folklor Potansiyelleri

Azerbaycan'da yaşayan Türkler, dediğimiz kimi Oğuz ve Qıbçaq Türkleri idiler. Afşarlar, Bayatlar, Beydililer, Qarapapaqlar, Aqqoyunlu ve Qaraqoyunlu Türk devletlerinin qurulmasında çox tesirli ve mühim rolları olmuşdur. Hetta çoxusu misal olaraq Afşarlar kimi devlet quruculardan olmuşlar. Bezileri ise Bayındır ve Çepniler kimi Azerbaycan ve Anadolunun ortaq hâkimiyeti altında yaşamalarını başarmişlar.

Biz bu meqalede yalnız Azerbaycan'ın cenubunda ve onun qerb bölgelerinde tarix boyu yaşayan Oğuz Türkleri boylarından danışıb bu tayfaların muasir Azerbaycan folklorunda ne qeder mühüm rolları olduqlarından danışacıyıq. Azerbaycan'ın qerb bölgeleri İran içinde qerbi Azerbaycan eyaleti olarak tanınır. Merkezi ise Türk yurdu olan ve Afşarların yaşadığı merkez, Urmiye şeheridir.

Bu bölgenin en şimali menteqesi eski tariximizde İrevan ve Naxçıvan şeherleri ile birlikte çuxur sed menteqsini teşkil ederdiler. Makı şeheri, Bayat Türkleri'nin merkezidir. Şirin lehceyle danışan Makılılar, zengin folklora malikdirler. Makı rayonunun 200 min neferlik nufusunun çoxu, Bayatlara mensubdurlar.

Makı rayonuna bağlı ve şeherin cenub menteqelerini teşkil eden bölgede bugüne qeder qedim Azerbaycan Hurufilik mefkuresini saxlayan Qaraqoyunlu Türkleri yaşıyır. Azerbaycan'ın şifahi adebiyetına xususile aşıq senetinini saxlanıb inkişafında, Qaraqoyunlu Türkleri'nin çox önemli rolları olmuşdur. Onlar heterodoks İslâm'a inanir ve ehle heqden dirlar. Xalqımız onlara elellahi yaxud Goran deyirler. Bu menteqede yaşayan xalqımız arasında qedim Azerbaycan'ın sofi-teke aşıq gelenekleri davam etmektedir.

Şimaldan cenuba gelirken ikinci rayon tarix boyu şöhreti olan Xoy şeheridir. Xoy'da başqa Türk boylarından elave Azerbaycan'da adları az görünen Yıva/İva Türkleri yaşamaktadırlar. Onlar da zengin folklora malik xalqarımızdandırlar.

Salmas şeheri, şimaldan cenuba gelirken üçüncü rayondur. Şimal qerbinde yaşayan Küresünli (Giresünli) Türkleri deyerli folklora sahip insanlardandırlar. Başqa yerde tayları az görünen bu xalq, Çepni eline mensub ve Şafei inanclı Türklerdendirler. Salmas, Xoy ve Urmiye'de nufusları texminen 150 min nefer olar. Onların danışıq şivesi Azerbaycan ve Anadolu Türkleri'nin köprüsü sayılır.

Salmas'da yaşıyan bir ayrı Türk tayfası da Lekler'dir. Şah Abbas zamanında Salmas'a köçdürülen bu tayfa, Salmas'ın 9 para kendinde yaşayır ve folklor baxımından deyerli qaynaq sayılır. Lekler'in çox az qismi de Azerbaycan'ın başqa şeherlerinde yaşıyırlar.

Qerbi Azerbaycan eyaletinin merkezi Urmiye şeherine gelirken qocaman Afşar elerini görüruk. Menteqeni qorumaq üçün Şah Abbas zamanında buraya köçdürülen Afşarlar, derin ve zangin folklor ve tayı az görünen aşıq senetine malik xalqımızdandırlar. Yüzler aşığımız tarix boyu bu bölgede aşıq senetının qoruyup inkişafında iştirak etmişler. Tebriz-Qaradağ aşıq senetinden ferqli olaraq Urmiye aşıq seneti, yalnız Orta Asya'da görünen, tek sazla ifa olunur. Burada balabandan xeber yox. Afşarlar hem şeherde hem de kentlerde yaşamaktadırlar. Urmiye ve Salmas ve Sayın qalada nufusları 400 min nefer olar.

Urmiye şeherinin cenubu da möhteşem Qarapapaq yurdu Sulduz şeheri her türlü tezyıqlere qarşı Türklüyün elecede ata babamızdan miras qalan folklorumuzu qoruyup saxlamaqdadır. 1800'inci illerde Qacar-Rys savaşları sırasında Araz'ın şimalından cenuba köçen bu xalqımızın bir qısmı hele de indiki Gürcüstan'a bağlı Borçalı'da, bir qismi de Türkiye'de Qars'da yaşamaktadırlar. Sulduz, Salmas ve Urmiye'de nufusları texminen 150 min neferdir.

İran'da Folklor Toplamaq ve Tedqiq Merkezleri

Bilindiği kimi Mamaleke mehruseye İran 1925'inci ilden beri Azerbaycan Türkleri hâkimiyetinden çıxmış ve çox milletli şekilinden tek milletli (Fars, Arya) memlekete çevirildi. Bu dönüşün sebebleri ve geden aşamaları açıklamağına bu yazıda yer yox, ama bu dönuşun Fars olmayan xalqlarda xususile Azerbaycan Türkleri'ne ciddi zerbe vurulduğunu qeyd etmekde fayda var.

Pehlevi Şahlığı başlayınca memleketin butun imkânları Fars kültürüne verildi. Azerbaycan medeniyeti durduruldu. Şimali Azerbaycan'da medeniyetimiz inkişaf etdiği zaman cenubda şahın basqı ve tezyiqiyle Azerbaycan medeniyeti geri getmeye mehküm oldu. Şah zamanı, xalqımız yalnız Tebriz, Urmiye, Erdebil ve Zencan radyolarila folklorla maraqlanabilirdi. Azerbaycan radyoları da folklorumuzun toplanmasında çox

böyük rol oynamışlar. Teesüfle ki o zamanlar radyolar folklorun neşrinde kitab yaymaya geçememişler. Azerbaycan Türkçesinde kitab ve meqale olaraq yalnız Dr. Müctehidi ve Dr. Cavid'in ve Dr. Ferzane'nin kitablarını görebilirik. Farsca olaraq da Behrengi ve Tehran radyosunda çalışan Encevi Şirazi'nin kitablarını görmek mümkündür. Qalan ise Koroğlu, Esli Kerem ve bu kimi xalq nağıllarımızın aşıqlar dilinden alınma heç redakte olmayan şekilde basılmış kitablar idi.

1979 İslâm inqilabından sonra Türkçe ve Azerbaycan medeniyetine uyqulanan yasaq qaldırılsa da yene eski devlet politikası kimi devlet programlarına Azerbaycan dil, edebiyat ve folkloruna heç yer verilmedi.

Müasir İran'da folklor toplama ve tedqiqi üçün heçbir idare veya institu yoxdur. Bunun sebebini de Farslar'ın geniş folklora malik olmadıqlarını ve elece de ehtiyac görmediklerini göstermek olar.

İndiki İran'da, İran xalqlarının danışıq şivesi ve nağıllarını toplayan idare medeniyet nazirliyine bağlı mirase ferhengi (medeni miras) adlı quruma verilmiştir. Folklorun toplanması ve neşrinde ne qeder ciddi olup olmadıqlarında heç xeberimiz yox. Azerbaycan folkloru sahesinde de bugüne qeder ciddi bir iş görülmemişdi.

Cenubda Azerbaycan Folklorunun Bugünkü Veziyeti

90'inci illerden etibaren Azerbaycan tarixinde yeni sehifeler açıldı. O günlerden beri universite telebeleri başda olmaqla ziyalılarımız ve medeniyetimizin qayğı keş insanları bu işde çox muveffeqiyetlere nail oldular. Şuurlu xalqımız tariximiz, folklorumuz ve xulase medeniyetimizin her qolunda ne qeder ciddi başarılar elde etseler de elmi metodlar ve teknik meselelerle tanış olan insanımız ve tedqiqimiz çox azdır. İran universitelerinde Azerbaycanlı telebeler üçün açılan Azerbaycan Türkçesi dersi kifayet qederile problemimizi çözemedi.

Son zamanlar Urmiye ve Tebriz üniversitelerinde resmen Azerbaycan Türkçesinin kürsüsü açılması yaxın gelecekde elmi kadroya sahip olmamız demekdir. Bu ise bekle Azerbaycan medeniyeti tedqiqinde olan elmi problerimizi çözebilsin.

Salmas Menteqesinde Topladığımız Folklora Göre

Salmas menteqesinden topladığımız 6 kaset, xalq nağıllarımız, bayatılar, saya şerlerini ehtiva etmekdedir. Bu nağılların başında nağılı söyleyen ilk başda öz adı famili, ata adı, neçe yaşda olduğu ve kimden nağılı öyrendiyini dedikden sonra nağılını demeye başlayır. Nağılların her zamankı ilk cümlesi "Bir gün varidi bir gün yox idi. Allah'dan yaxud tanrıdan geyr ez heç kim yoxudu." kimi cümlelerle başlayır. Bezi nağılların adları beledir: Yaxçılıq Eyle

At Deryaya Balıx da Bilmese Xalıq Biler, Yelmiyan, Ezrayilin Nağılı, İki Qardaş, Qebistanlıq, Bir Söz Deyıbler İki Yox, Keçinin Nağılı, Şah İsmayıl Nağılı, Şah Abbas Nağılı, Zümrüt Quşu, Fatma Xanım, Ürek Yarası vs.

Salmasda Folklor Toplamada Qarşılaşdığımız Bezi Problemler

Biz esas olaraq folklor toplamanı Azerbaycan'ın qerb vilayetlerinden sayılan Salmas şeherinde başladık. 6 kasete yığdığımız nağıllar toplusu Salmas şivesile Azerbaycan nağılları, bayatıları ve xalq mahnılarını ihtiva edir. Bu kasetler yalnız Azerbaycan folkloru üçün mühüm deyıl, Azerbaycan Türkçesinde Salmas ağzının tedqiqi üçün de çox faydalı olacaq. Bugün bu kasetler Salmas ağızını tedqıq üçün Türkiye de ali mektebler ve dosentlik tezi olmuşdur.

Sas etibarile Salmasda folklor toplamada biz iki mühüm problemle qarşı qarşıya geldik:

1- Folklor söyleyen insanla tanış olmama.

2- Kaset ve mikrofondan meydana gelen problemler.

Sosyal veziyet baxımından Müselman ölkeler çox bağlı ölkelerdir. Cenub Azerbaycan kentleri de bu veziyetden müstesna deyiller. Kişi qadın münasibetleri normal bir seviyeye çatmamış. Sosyal elmlerinde meydan tedqiqleri olmadığına göre xalqımız bu kimi araştırmalara âdet etmemişler. Bizim folklorumuzun esil qaynaqları qadınlar olduğundan yuxarıdaki meseleni göze alaraq yaşlı qadınların yaxın qohumlarına muraciet ederek onlardan yardım istedik. Heçbir bigane olmayan yerde bu kasetler yazıldı, aile mühitinde qedim eşitdiyimiz nenelerimizin nağılları kimi. Bizce bu şive folklor toplamada daha sağlam bir şivedir.

Folklor toplamada başqa bir problem ise kaset ve mikrofon olan yerlerdir. Belençi muhitlerde kişi yaxud qadın özünü tezyiq altında hiss ederek, cenubda "ibareti" sözüyle meşhur olan istilahda danışıq terzine geçir.

İcaze verin "ibareti" istilahını açıqlayım. Bu istilah, piskolojik tezyiq altında xalqımızın Azerbaycan Türkçesi'ni Fars dili ve grameri çerçivesinde ifade etmek demekdir. Bu terz danışık da umumen Azerbaycan Türkçesi grameri bozulur ve mekteblerde tehsil alınmış Farsça gramer ve terkibleri yerine oturur. Bugün bu danışıq terzine Azerbaycan'ın tamam radyo televiziyasında rast gelmek mümkündür. Ziyalılarımız yalnız resmî yerlerde görünen bu terze heciv olaraq FARKİ (Farsî+Türkî) deyirler.

Biz bu sorunu da yuxarıda dedıyımız yöntemı icra etdikden sonra çözebildik ve nihayeten daha sağlam kasetler elde etdik.

Biz bu 6 kaseti Azerbaycan Folklor İnstitusu'na istedikleri elmi tedqiqleri üçün teqdim edib ve bu instituda çalışan dostlarımıza va başqana müveffeqiyetler arzu edirik.

Qaynaqlar

Melikzade, T. (1999), *Salmas Tarixi*, Salmas.
Niyayiş, Ü. (2003), *Altaylardan Sehendimize*, Tehran.
Reisniya, R. (1989), *Azerbaycan Der Seyre Tarixe İran*, Tebriz.
Zehtabi, M. T. (1999), *İran Türklerinin Eski Tarixi*, Tebriz.